

# COP29 həmkarlar ittifaqlarının fəaliyyətinə müsbət təsir edəcək

***BMT**-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Bakıda keçirilən 29-cu Tərəflər Konfransı (COP29) çərçivəsində aparılan müzakirələr və dünya ictimaiyyətinin qarşılaşdığı qlobal problemlərin həlli üçün qəbul edilən vacib qərarlar tədbirin beynəlxalq əhəmiyyətini xeyli artırdı. Dünyanın ayrı-ayrı qitələrini təmsil edən 80 dövlət və hökumət başçısının, qeydiyyatdan keçmiş 76 mindən çox iştirakçının qatıldığı COP29-un yüksək səviyyədə təşkil olunması beynəlxalq aləmi narahat edən iqlim dəyişmələrinin törədə biləcəyi problemlərlə effektiv mübarizə aparmaq üçün mühüm addım oldu. Bununla da ölkəmizdə yüksək səviyyədə təşkil olunan COP29 əvvəlki eyniadlı tədbirlərdən əsaslı surətdə fərqlənməklə dünya ictimaiyyətinin diqqətini özünə cəlb etdi.*

Beynəlxalq konfransı izləyən hər kəs gördü ki, Azərbaycanın COP29 Sədrliyi ilə apardığı intensiv çoxtərəfli diplomatiya nəticəsində dünyanı narahat edən son dərəcə mühüm problemlər geniş müzakirə olundu və onun həlli üçün konkret qərarlar qəbul edildi.

COP29-da həmkarlar ittifaqlarının fəaliyyəti də geniş şəkildə müzakirə olundu və gələcək inkişafı ilə bağlı hərtərəfli fikir mübadiləsi aparıldı. Konfrans çərçivəsində Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının (BHİK) təşəbbüsü, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) təşkilatçılığı ilə son dərəcə maraqlı vacib bir tədbir keçirildi. "Həmkarlar ittifaqları üçün strateji gün" mövzusunda təşkil olunan tədbirdə COP29-da iştirak edən müxtəlif ölkələrin həmkarlar ittifaqlarının nümayəndələri iştirak etdilər.

Tədbirdə BHİK-nın Baş katibi Luk Trianql tədbirin məqsədi və müzakirə olunan mövzuların ictimaiyyət üçün son dərəcə böyük fayda verəcəyinə toxundu. COP29-un nümunəvi təşkilindən və gedişindən məmnunluğunu ifadə edən baş katib aparılan müzakirələrin və qəbul edilən qərarların nəticəsinin iqlim dəyişmələrinin fəsadları ilə mübarizədə faydalı olacağını bildirdi.

Sonra Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov ölkəmizdə keçirilən COP29-un tarixi rolundan danışaraq bildirdi ki, bütün məsələlərin həllində məsuliyyətli ölkə olan Azərbaycan hər zaman qlobal problemlərə həssas yanaşır. Dövlətimizin başçısı cənab İlham Əliyev bəşəriyyətin gələcəyi ilə bağlı önəmli təşəbbüslər irəli sürür və onun icrasına uğurlu fəaliyyəti ilə önəm verir.

Konfransın müasir cəmiyyətimizin inkişafından və tarixi əhəmiyyətindən danışan konfederasiya sədri iqlim dəyişmələri ilə mübarizədə həmkarlar ittifaqlarının üzərinə düşən vəzifələrə toxunaraq bu istiqamətdə həmrəyliyin və əməkdaşlığın önəmindən danışdı. Vurğulandı ki, COP29 işçilərin hüquqlarının və sosial ədalətin müdafiəsi, iş şəraitinin yaxşılaşdırılması kimi aktual məsələlər üçün unikal platformadır.

Hazırda həmkarlar ittifaqları istehsal proseslərində dəyişikliklər, "yaşıl texnologiyalar" və bərpaolunan enerji mənbələrinə keçidlə bağlı qərarların qəbulu proseslərində iştirak edir. Həm də konfrans yeni təşəbbüslərin, birgə layihələrin başlanğıc nöqtəsinə çevriləcək, uğurlu gələcək fəaliyyətlər üçün təməl olacaq.

COP29-da aparılan müzakirələr, həmkarlar ittifaqlarının bu prosesdə iştirakı barədə ətraflı danışıldı və Milli Səviyyədə Müəyyən edilən Töhfələrlə bağlı fikirlər diqqətə çatdırıldı. Tədbirdə, həmçinin tematik sessiyalar keçirilib, iqlim dəyişmələri ilə mübarizəyə maliyyə vəsaitinin cəlb edilməsinin vacibliyi, İqlim Maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Məqsədinin razılaşdırılması vurğulanıb, əmək hüquqları sahəsində ortaya çıxan tendensiyaların müzakirəsi aparılıb, bu istiqamətdə çətinliklər və gələcək çağırışlar qeyd olunub.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov COP29-da iştirak edən Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının baş katibi Luk Trianql ilə görüşdə Azərbaycan həmkarlar ittifaqlarının fəaliyyətindən, o cümlədən beynəlxalq əlaqələrindən, konfransın gedişindən danışıb, qarşıda duran vəzifələr müzakirə olunub. Bildirildi ki, ölkəmizin yüksək peşəkarlıqla hazırladığı COP29 şəffaf, qərəzsiz və inklüziv şəkildə keçir, tədbirin bütün aspektləri çərçivəsində dayanıqlılıq və həmrəylik tərənnüm olunur. Qazanılan nəticələr ekoloji təsirlərin azalmasına və geniş ictimai iştiraka gətirib çıxaracaq.




Qeyd olundu ki, Prezident İlham Əliyevin rəhbərliyi tərəfindən həyata keçirilən kompleks tədbirlərin nəticəsidir ki, vətəndaşlarımızın rifahı davamlı olaraq yüksəlir, əməkhaqları, müavinətlər və digər sosial ödənişlərin məbləğləri müntəzəm olaraq artırılır. Təbii ki, bunlar Azərbaycan həmkarlar ittifaqlarının güclənməsinə, azad və sərbəst fəaliyyətinə, əmək hüquqlarını daha effektiv şəkildə müdafiə etməsinə səbəb olur.

Bununla yanaşı, görüşdə ölkəmizdə təhlükəsiz və layiqli əmək şəraitinin yaradılması istiqamətində atılan addımlara da toxunmaqla həmkarlar ittifaqları tərəfindən işçilərin sağlamlıqlarına göstərilən qayğı, normal istirahətləri üçün yaradılan şərait haqqında danışılıb.

Kollektivimiz COP29-da qəbul edilən qərarların icrasını gündəlik fəaliyyət proqramı kimi dəyərləndirib. Müəyyən edilmiş iş qrafikinə uyğun olaraq şəhər ərazisində ağaclar, kollar, güllər əkilir, yaşıllıqlara aqrotexniki qaydada qulluq göstərilir və çoxsaylı tədbirlərin keçirilməsi nəzərdə tutulub.

**Ziyafət XASIYEVA,**
**Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının Şəki Rayon Komitəsinin sədri.**

Respublika .- 2024.- 3 dekabr (№ 266).- S.7.